

# Oksford Universitetinin əməkdaşları Salyanda tektonik qırılmalar sahəsində

**Bu qırılmalar britaniyalı alimlərin tədqiqatları nəticəsində əldə olunub**

Böyük Britaniyanın Oksford Universitetinin professoru Riçhard Voalker və əməkdaşı İan Pierce Azərbaycana səfərləri çərçivəsində Salyan rayonu ərazisindəki tektonik qırılmalar sahəsində olublar.

Respublika Seysmoloji Xidmət Mərkəzindən bildirilib ki, britaniyalı qonaqların səfəri tektonik qırılmalar sahəsi ilə yaxından tanışlıq xarakteri daşıyıb.

Vurğulanıb ki, bu qırılmalar Oksford Universitetinin əməkdaşları tərəfindən İNSAR texnologiyalarından istifadə etməklə kosmosdan çəkilmiş şəkillər əsasında apardıqları tədqiqatlar zamanı əldə olunub.